# Şəxsiyyətin inkişafının əsas amilləri

**Natəvan Nəsibli**
*Bakı Qızlar Universiteti*
**E-mail:** nasibli_89@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. S.S. Tağıyeva,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** şəxsiyyət, irsiyyət, mühit, təhsil, fəaliyyət, ünsiyyət, fərdi, bioloji, sosial, reflekslər, inkişaf, xüsusiyyətlər
**Ключевые слова:** личность, наследие, среда, образование, деятельность, общение, личностные, биологические, социальные, рефлексы, развитие, особенности
**Key words:** personality, heredity, environment, education, activity, communication, individual, biological, social, reflexes, developmental, features

Şəxsiyyət problemi, onun müxtəlif yönlərdən öyrənilməsi hələ antik filosofların marağına səbəb olmuş və Sokrat, Platon, Aristotel şəxsiyyətin inkişafı və formalaşması haqqında dəyərli fikirlər söyləmişlər. Şəxsiyyət problemi, onun inkişafı, tərbiyəsi və qarşılıqlı əlaqələri Şərq fəlsəfəsinin, pedaqoji, psixoloji fikrinin də həmişə hədəfi olmuş, bu istiqamətdə Nizami Gəncəvinin, Füzulinin, Nəsiminin, Nəsirəddin Tusinin, Əvhədinin, habelə Sədi Şirazinin, İmam Qəzzalinin, Cəlaləddin Ruminin və başqalarının dəyərli fikirləri, şəxsiyyətin tərbiyəsinə dair qiymətli öyüd və nəsihətləri məlumdur.

Şəxsiyyət termininin (Persona) müasir anlamı Fransada görkəmli alimlərin, ilk növbədə həkimlərin Jane və Şarko səyi ilə formalaşmışdır. Əvvəllər bu termin maska, sifət mənasında işlədilirdi. Onu teatrda iştirak edən artist öz üzü qarşısına tutardı. Daha sonra sözün mənası genişləndi və aktyorun özünü persona adlandırmağa başladılar. Az zaman sonra hər hansı peşə sahibi olan insana deyərdilər ki, onun da şəxsiyyətinin dəyər kriteriyası cəmiyyətdə tutduğu yerin və rolun əhəmiyyətliliyi idi.

Şəxsiyyəti xarakterizə edərkən təkcə onun tipoloji deyil, (yəni eyni qrupa mənsub insanların ümumi xüsusiyyətlərini) həm də təkrarolunmaz fərdi xüsusiyyətlərini müəyyənləşdirirlər. Fərdi xüsusiyyətləri deyəndə onun hissetmə, qavrama, anlama diqqətini yaddaşını, iradəsini, düşüncəsini, hisslərini, intellektini nəzərdə tutulur. İnkişaf bioloji və sosial amillərin vəhdəti şəklində təzahür edir. “Bioloji amil” anlayışının irsən qəbul edilmiş əlamətlərlə yaxınlığı vardır, lakin onları eyniləşdirmək olmaz. Belə ki, bütün irsi əlamətlər bioloji əlamətlərdir, lakin bütün bioloji əlamətlər irsi deyildir. Irsiyyət dedikdə, övladlarda valideynlərlə bioloji oxşarlığın əmələ gəlməsi anlaşılır. Irsiyyəti daha geniş mənada nəzərdən keçirmək mümkündür. Buraya insanın genotipini nəzərdə tutan bütün genetik proqramı, həmçinin onun ana bətnində inkişaf dövrünə aid məsələlər daxil edilə bilər.

Mühit – daha mürəkkəb anlayışdır. Mühit dedikdə, uşaq anadan olduğu dövrdən ömrünün sonuna kimi onu əhatə edən, ailədən və ən yaxın ətrafdan başlayaraq, sosial mühitlə bitən, yəni həmin insanın doğulduğu və onun inkişafı və tərbiyəsi üçün şərait yaradan cəmiyyəti səciyyələndirən, çox müxtəlif xarici təzahürlər kompleksi nəzərdə tutulur. Adətən mühitin təbii, yaxud coğrafi, sosial və ev təsirini fərqləndirmək mümkündür. Hər bir mühitin insana təsiri özünəməxsus şəkildədir.

İnsan xarakterinin formalaşmasında mühitin rolu ilə bağlı Azərbaycan filosofu Siracəddin

Mahmud Əbubəkr oğlu Urməvi (1198-1283) dəyərli fikirlər irəli sürmüşdür. O, deyirdi ki, insanın xasiyyəti fitri deyil, həyatda formalaşır. O, yazırdı: "Atası xristian olan uşağı müsəlman tərbiyə etsə müsəlman olar." Onun fikrincə, uşağın saya (ağ) beynində xeyir və ya şər, yaxşı və ya pis sonralar iz salır.

XVIII əsrdə burjua sinfinin ideoloqları "irsiyyətə" qarşı kəskin etirazlar edirdilər. İngilis filosofu və pedaqoqu Con Lokk "İnsanın düşüncəsi haqqında təcrübə" və "Tərbiyə haqqında fikirlər"əsərlərində irəli sürdüyü iki ideya VIII əsr təhsil nəzəriyyəsində əsas pol oynayır. Onlardan biri odur ki, insanı təhsil yaradır. O, belə hesab edirdi ki, uşaq dünyaya nə şair, nə həkim, nə də ağa kimi gəlir, irsən uşağa heç nə verilmir. Con Lokk insan xarakterini axar çaya, tərbiyəni isə bəndlərə bənzədirdi. Axar çayın qarşısına bəndlər vurub onun istiqamətini dəyişmək mümkün olduğu kimi, tərbiyənin gücü ilə insan xarakterini istənilən səmtə yönəltmək olar. Con Lokk iddia edirdi ki, təsadüf etdiyimiz adamların onda doqquzu mövcud olduqları vəziyyətdə-rəhmdil və ya zalım, faydalı və ya faydasız olmalarında tərbiyəyə minnətdardırlar. İnsanlar arasındakı fərqləri məhz tərbiyə yaradır.

Bu fikrini təsdiqləyərək Con Lokk eyni zamanda Blajen Avqustinin insan təbiətinin "ilk günaha" və kartezianstvoya (İnsandoğuşdan məntiqli qərarlar vermək qabiliyyətinə sahibdir) əsaslanması ideyası ilə mübahisəyə girir.

Ağılı bu şəkildə təsvir edən Lokk, Platonun "İdeyaların fitriliyi" nəzəriyyəsinə qarşı çıxaraq, vaxtilə Aristotel tərəfindən qaldırılan bu ideyanın əsasında özünün məşhur "Fabula rasa" (ağ lövhə) nəzəriyyəsini irəli sürdü. Con Lokkun fıkirincə, insan dünyaya gəldikdə, irsən ona heç bir qüvvə verilmir. Uşağın ruhu ağ lövhəyə bənzəyir, bu təzə ağ lövhə üzərində tərbiyə vasitəsilə hər nə istəsən yazmaq olar. Uşaqda istənilən keyfiyyəti tərbiyə etmək, yaratmaq olar.

XVIII əsrin fransız materialistləri Helvetsi, Didro və başqaları "Ağ lövhə" nəzəriyyəsini əsasən qəbul etmiş və müəyyən qədər yaymağa çalışmışlar. Helvetsi irsiyyət amilini inkar edərək tərbiyə amilini həddən çox şişirdərək deyirdi ki, "Tərbiyə hər şeyə qadirdir". Deni Didro Helvetsiyə və Con Lokka cavab yazaraq deyirdi ki, tərbiyə amilini çox da şişirtmək lazım deyildir. "Tərbiyə hər şeyə yox, çox şeyə qadirdir. "Ağ lövhə"yə yazmaq əsas şərt deyildir. Əsas şərt "Ağ lövhə"yə kim yazır, nə yazır, necə yazır və hansı alətlə yazır" – budur əsas şərt.

V.Q.Belinski uşağın inkişafında tərbiyənin rolunu qeyd etməklə, irsiyyəti də unutmamağa çağırırdı. XIX əsrin axırları XX əsrin əvvəllərində yenidən tərbiyənin rolunu inkar edən mürtəce fikirlər baş qaldırmağa başlayır.

İnsanın inkişafında mühitli rolunu qeyd edən Stenli Holl (Amerika) "İki amil" nəzəriyyəsini irəli sürür. Yəni bioloji amillə — dar ictimai mühit fatalistikcəsinə şərtlənir. "Qoşa amil" nəzəriyyəsinin ünsürlərinə böyük Azərbaycan şairi

Hazırda İngiltərə, Fransa, İtaliyada və s. ölkələrində pedaqoqlar testlər və anketlər əsasında uşaqlaеın istedadlarına görə seçib orta və ali məktəblərdə oxumağa qabil olub-olmaması haqqında qərar çıxarırlar. Əgər bu qərar mənfi isə uşaq orta məktəbin yuxarı sinfində təhsil almaq hüququndan məhrum edilir.

Uşaq canlı bir üzviyyət, təbii bir varlıq kimi dünyaya gəlir, ona görə də irsiyyətin müəyyən təsiri onun inkişafında özünü göstərməyə bilməz. O biri tərəfdən uşaq müəyyən ictimai mühitdə doğulub, yaşayıb, inkişaf edir, ona görə də ictimai mühitin təsirindən azad ola bilməz. Nəhayət, sonradan tərbiyəçi və müəllimin təsiri altında (məqsədəuyğun, müntəzəm təsir) müxtəlif keyfiyyətlər kəsb etməyə başlayır. Deməli, onun inkişafında tərbiyə də böyük təsir göstərir.

İrsiyyət vasitəsiilə keçən və hər bir insan övladına məxsus olan ümumbəşəri təbii imkanlar uşaqda özbaşına inkişaf edən qüvvə deyildir: onun gələcək müqəddəratını həll etmir. Lakin onun müxtəlif psixi və fiziki qabiliyyətlərinin əmələ gəlməsi və inkişaf etməsiüçün təbii zəmin təşkil edir. Uşağın irsən gətirdiyi təbii imkanların qabiliyyətlərə çevrilməsi və inkişaf etməsi üçün mühit və tərbiyənin təsiri zəruridir.

İctimai mühit məfhumu altında hər şeydən əvvəl, uşağı əhatə edən, onu bəsləyən, ona qayğı göstərən, onun inkişafı üşün şərait yaradan insanlar nəzərdə tutulur. Bura insanların istehsal həyatı, cəmiyyətdəki ictimai münasibətlər, siyasi və mədəni həyat, televizor, teatr, kino, radio, mətbuat da daxildir.

Eyni mühit müxtəlif uşaqlara müztəlif cür təsir edir. Burada mühitin təsiri ilə tərbiyənin təsirini eyni hesab etmək olmaz. Burada fərq ondadır ki, tərbiyə qabaqcadan düşünülmüş və məqsədə yönəldilmiş prosesdir, amma mühitin təsiri isə bıelə olmaya da bilər.

İrsiyyət dedikdə insanın bioloji xüsusiyyətləri: orqanizmin ümuminsani və fərdi xassələri hansı ki, uşaqlara valideynlər tərəfindən ötürülür. Müasir genetika eksperimental tədqiqatlar əsasında irsiyyətin maddi təbiətini müəyyən etmişdir. İrsi informasiyanın maddi daşıyıcıları DNK (dezoksiribonuklein turşusu) molekullarıdır. Xarakterin cizgiləri, meyllər, bacarıqlar və s. irsi keçir. Düzdür, onlar həyat prosesində formalaşır, lakin bu zama bioloji amillər özünü göstərir. Irsi olaraq fiziki xassələr: bədən quruluşu. Saçın rəngi, göz, dəri, maddələr mübadiləsinin nizamlanma xüsusiyyətləri, qan qrupu, arterial təzyiq.

Şərq pedaqoji fikrində, Azərbaycan folklor nümunələrində şəxsiyyətin inkişafında irsiyyətin rolu öz ifadəsini tapmışdır. Xalqımızın atalar sözlərində deyilir: “Ot kökü üstə bitər”, “Namərd gəlib mərd olmaz, mərd olmasa atası”, “Quyuya su tökməklə quyuda su olmaz” “Bədəsil əsil olmaz, boyunca qızıl qala” və s. Azərbaycan maarifçılərindən S.Ə.Şirvani, M.Ə.Sabir cəmiyyətin tərəqqisində tərbiyəyə böyük ümid bəsləmişlər. Onlar insanın xoşbəxtliyinin yolunu tərbiyədə görmüşlər.

Araşdırmamızın sonu kimi belə bir nəticəyə gəlmək mümkündür ki, səxsiyyətin formalaşmasında həm irsiyyətin, həm mühitin, həm tərbiyənin, eləcə də şəxsi fəaliyyətin və sözsüz ki ünsiyyətinn rolu çox böyükdür. Dialektik nəzəriyyə məhz bu mövqedə durur. Bu nəzəriyyəyə görə, şəxsiyyətin inkişafında irsiyyət amili müəyyənedici, sosial amillər isə həlledici rol oynayır. İrsiyyətin müəyyənedici rolu onunla əlaqədardır ki, irsi imkanlar tərbiyə və mühitin iştirakı olmadan öz-özünə inkişaf edib qabiliyyətlərə çevrilə bilməz. Tərbiyə və mühit insanın təbii imkanlarını üzə çıxarıb inkişaf etdirə də bilər, onların inkişafına mane də ola bilər. Buna görə də hər bir uşağın təbii imkanlarını vaxtında (kiçik yaşlardan) üzə çıxarmaq və onların inkişafı üçün əlverişli şərait yaratmaq lazımdır. Əks halda cəmiyyət bir çox istedadlardan məhrum ola bilər.

**Məqalənin aktuallığı.** Şəxsiyyət probleminin öyrənilməsi tarixən alimlərin diqqət mərkəzində olmuşdur. Təbii ki, şəxsiyyətin formalaşmasına təsir göstərən əsas amillərdən biri də ictimai mühitdir. Məqalədə bu məsələyə xüsusi toxunulması onun aktuallığını göstərir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə şəxsiyyətin inkişafı məsələləri ilə bağlı antik dövrlərdən müasir günümüzədək həm xarici, həm də Azərbaycan alimlərinin apardığı tədqiqat nəticələrinə istinad edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Talıbov Y.R., Ağayev Ə.Ə., İsayev İ.N., Eminov A.İ. Pedaqogika. Bakı, Adiloğlu, 2003.
2. Kazımov N. Məktəb pedaqogikası (Dərslik). Bakı, "Çıraq", 2011.
3. Pedaqogika (M.Muradxanovun redaktəsi ilə). Bakı, "Azərtədrisnəşr", 1964.
4. Abbasov A., Əlizadə H. Pedaqogika. Bakı, "Renessana", 2000.
5. Məlikov M., Əfəndiyeva F. Pedaqogika. Bakı, Nurlan, 2018.

**Н. Насибли**

## Основные факторы развития личности

## Резюме

Статья посвящена такому важному вопросу, как изучение проблем личности. В то же время исследована роль социальной среды как одного из ключевых факторов, влияющих на формирование личности. Это также относится к результатам исследований как зарубежных, так и азербайджанских ученых от античности до современности по вопросам личностного развития.

**N. Nasibli**

## Main factors of personality development

## Summary

The article focuses on an important issue such as the study of personality problems. At the same time, the role of social environment as one of the key factors influencing the formation of personality has been studied. It also refers to the research results of both foreign and Azerbaijani scholars from antiquity to modern times on personal development issues.

**Redaksiyaya daxil olub:** 19.04.2019